# Hüquq düşüncəsinin manifesti: akademiyada yaradıcılıq böhranı

*Ceyhun Əsədov*[*]

***Annotasiya***
*Məqalə müasir hüquq akademiyasında hökm sürən intellektual durğunluğu və yaradıcılıq böhranını təhlil edən proqram xarakterli manifestdir. Bu məqalə akademiyanın institut kimi deyil, düşüncə rejimi kimi dəyərləndirilməsini müdafiə edir. Hüquq düşüncəsinin əsasını fərdlərin səmimiyyəti və vicdanı təşkil edir, hüququ yalnız normativ şərhlərlə məhdudlaşdırmaq onun yaradıcılıq potensialını boğur. Məqalə həmçinin hüquq düşüncəsində Apollonik və Dionisian prinsiplərinin tarazlaşdırılmasının vacibliyini vurğulayır, postmodernizmin yaratdığı yeni senzura mexanizmlərinə qarşı çıxış edir, habelə hüququ estetik və fəlsəfi çərçivədə yenidən düşünməyi təklif edir.*

***Abstract***
*This article is a programmatic manifesto analyzing the intellectual stagnation and creative crisis prevailing in the modern legal academy. It argues for evaluating academia not as an institution, but as a mode of thinking. Legal thought is fundamentally grounded in individual sincerity and conscience; limiting law to normative commentary stifles its creative potential. The article also emphasizes the importance of balancing Apollonian and Dionysian principles in legal thinking, critiques the new censorship mechanisms produced by postmodernism and advocates for reimagining law in aesthetic and philosophical dimensions.*

**MÜNDƏRİCAT**

Giriş....................98
I. Platonun bağının meyvələri....................99
II. Bizim bağın meyvələri....................102
III. Bağbanlar....................103
IV. Ağacları sulamaq....................107
V. Modernizmin baltaları....................111
VI. Fidanlar....................115
Nəticə....................116

[*] Bakı Dövlət Univesitetinin hüquq üzrə fəlsəfə doktoru namizədi.
Məqalənin yazılması və redaktəsində göstərdiyi dəstəyə görə Bakı Dövlət Universiteti Hüquq fakültəsi Tələbə Elmi Cəmiyyətinin Gənc Hüquq Alimləri Araşdırma Yardımçısı Layihəsi heyətinə təşəkkür edirəm.

# Giriş

Düşüncə fəaliyyətini hesablama səviyyəsinə endirən populyar mədəniyyətin fikir buxovları hüquqşünaslıqdan da yan keçməyib. Bu təsirin izlərini səmimi mətn problemindən xəbərdar olan hər kəs duya bilir. Burada tədqiq edəcəyimiz əsas problem ondan ibarətdir ki, hüquq düşüncəsi getdikcə yaradıcı və səmimi mahiyyətindən uzaqlaşaraq standartlaşdırılmış normativ qəliblər daxilində hərəkət edən hesablama fəaliyyətinə çevrilir. Bu tendensiyanın ən ciddi fəsadı odur ki, o, hüquqşünası sadəcə qanunvericiliyin mexaniki tədqiqatçısına çevirir və akademiyanı intellektual durğunluğa sürükləyir. Bu tendensiyanın ən fundamental təhlükəsi odur ki, hüququn yalnız pozitivist çərçivələrə və quru texniki prosedurlara endirilməsi hüquqşünasın fərdi mühakimə qabiliyyətini korşaldır, onu sadəcə qanunvericiliyin mexaniki tədqiqçisi səviyyəsinə endirir. Nəticədə akademiya yeni ideyaların doğulduğu intellektual laboratoriya olmaqdan çıxır, mövcud qəliblərin və mətndənkənar təfəkkürün sonsuz sayda təkrarlandığı sənaye konveyerinə çevrilir. Hüquq düşüncəsinin bu cür "ruhsuzlaşdırılması" fərdin öz orijinal təfəkkürü ilə səmimi münasibətini qorxuya məhkum edir, yeni hüquq doktrinası yaratmaq imkanlarını isə durğunluğa sürükləyir. Bu manifest vasitəsilə həmin problemin alt qatlarına, onun hansı mənbələrdən qaynaqlandığına və hüquq düşüncəsini hansı istiqamətə apardığına diqqət çəkilir.

Tətbiq olunacaq əsas metod hüquq düşüncəsinin qapalı qalmış intellektual potensialının yenidən üzə çıxarılmasıdır. Bu proses zamanı isə, şübhəsiz ki, düşüncə varisliyinə əsaslanaraq müəyyən edilən problemlər və onların həlli yolları yeni analitik kontekstlərdə təqdim olunacaqdır. Bu intellektual xəritəyə uyğun olaraq, məqalə boyunca əvvəlcə akademiyanın və hüquq düşüncəsinin içinə düşdüyü həmin yaradıcılıq böhranı təhlil ediləcək, "akademiya nədir?" və "o, yaradıcılıq böhranını necə yaşayır?" sualları ətrafında mövcud vəziyyətin diaqnostikası aparılacaq, ardınca isə bu böhrandan çıxışın konseptual yolları araşdırılaraq "yeni hüquq doktrinası necə formalaşdırılır?" sualı kontekstində təkliflər inkişaf etdiriləcəkdir.

Belə bir konseptual keçid çərçivəsində təklif ediləcək əsas cavablar düşüncəmizə ağlasığmaz, radikal ideyaları yaxın buraxmaqla əlaqədar olacaq. Bir digər təklif isə tənqiddən daha çox, tənqid yarada bilməkdən çəkinməməklə əlaqəlidir. Tənqid yarada bilmək dedikdə, əsasən, müəllifin özünə yönələ biləcək tənqidlərdən yayınmaq üçün normativ kölgələrə sığınmaq deyil, əksinə, fərdin öz düşüncəsini açıq şəkildə sərgiləməsinə şərait yaratmaq nəzərdə tutulur.

Yenə də digər həll yolu və cavabları oxuduqca aydın olacaq ki, burada iddiamız hansısa hazır reseptlər təqdim etmək deyil, yaradıcılıq məqsədi olan hüquqşünası öz düşüncəsi ilə baş-başa qaldığı intim məqamda səmimiyyətə qaytarmaqdır.

# I. Platonun bağının meyvələri

"Akademiya" sözünün bir çox mənaları var. Həmin mənalara "ibtidai səviyyədən yuxarı olan təhsil müəssisəsi, xüsusilə, özəl orta məktəb (və ya özəl lisey)", "xüsusi fənlərin və ya peşə bacarıqlarının tədris olunduğu orta məktəb və ya kollec", "ali təhsil", "Platon tərəfindən təsis edilmiş ali təhsil məktəbi", "Platonun Akademiyası ilə bağlı fəlsəfi doktrinalar (təlimlər)", "incəsənəti, elmi və ya ədəbiyyatı inkişaf etdirmək məqsədilə təşkil olunmuş alim və ya mütəxəssislər cəmiyyəti", "müəyyən bir sahədə geniş qəbul edilmiş və nüfuzlu sayılan formalaşmış baxışlar sistemi (və ya mövqelər məcmusu)" kimi ifadələr daxildir.[1]

Bu məqalədə araşdırılacaq məsələlər daha çox sonuncu mənaya - "müəyyən bir sahədə geniş qəbul edilmiş və nüfuzlu sayılan formalaşmış baxışlar sistemi"nə uyğun gəlir. Odur ki, akademiyaya sadəcə fiziki təsisat kimi yanaşmaqdan imtina edərək, Platonun akademiyası müzakirənin mərkəzi ünsürlərindən biri kimi qəbul edilə bilər.

Mövzunun əhatə dairəsi daraldıldıqda, hüquq akademiyasında Platon akademiyasının sosio-psixoloji dinamikaları xüsusi maraq doğurur. Bu sosio-psixoloji dinamikalar əslində iki fundamental ox üzərində qurulur: hüquqşünası əhatə edən akademik icma mühiti (sosioloji ölçü) və fərdin öz düşüncəsi ilə baş-başa qaldığı intim qorxular və cəsarət (psixoloji ölçü). Sosioloji müstəvidə Platon akademiyası fəlsəfənin, musiqinin, poeziyanın və dialektikanın bir-birini inkar etmədən qidalandırdığı inteqrativ və çoxsəsli (polifonik) bir mühit idi. Buna görə də başlanğıc üçün akademiyanın sosioloji topoqrafiyasının müəyyən edilməsi, bunun üçün isə akademiyaya məxsus məhsuldar ağılın mahiyyəti, fəaliyyət mexanizmi və tələblərinin müəyyən edilməsi zəruridir.[2] Akademiyanın sosioloji topoqrafiyası dedikdə, elmi mühit daxilində fərdlərin, qrupların və ideyaların yerləşməsi, onların bir-biri ilə qarşılıqlı əlaqəsi və bu əlaqələrin yaratdığı ümumi struktur nəzərdə tutulur.[3] Bu strukturun necə işlədiyini və hüquqi biliklərin necə formalaşdığını anlamaq üçün isə akademiyanın əsas hərəkətverici qüvvəsi olan "məhsuldar ağıl" öyrənilməlidir. Məhsuldar ağıl – mövcud məlumatları sadəcə təkrarlayan və ötürən deyil, yeni hüquqi mənalar, yanaşmalar və konseptlər istehsal edən təfəkkür tərzidir. Onun fəaliyyət mexanizmi tədqiqata, analitik mühakiməyə və rasional sorğulamaya əsaslanır; əsas

---

[1] Academy, The Merriam-Webster Dictionary (2004).

[2] Muharrem Kılıç, *Akademinin Sosyolojisine dair bir Derkenar: Akademia'nın Sosyo-Psikolojik Dinamikleri*, 3 Yükseköğretim Dergisi 31, 31 (2013).

[3] Daha ətraflı bax: Pierre Bourdieu, Homo Academicus (Peter Collier trans., 1984). (P.Burdö bu əsərində "akademiyanın sosioloji topoqrafiyası" (yaxud akademik məkanın strukturu) konsepsiyasını irəli sürərək, elmi mühiti spesifik bir sosial sahə (champ) kimi təhlil edir. Bu topoqrafiya çərçivəsində elmi mühit daxilində fərdlərin, qrupların və ideyaların iyerarxik yerləşməsi, onların bir-biri ilə qarşılıqlı əlaqəsi və bu qüvvələr nisbətinin yaratdığı ümumi struktur nəzərdə tutulur).

tələbləri isə sərbəst fikir mübadiləsinin aparıla biləcəyi açıq və funksional elmi mühitin mövcudluğudur. Bu elementlərin ardıcıl şəkildə müəyyən edilməsi, akademiyanın hazırkı vəziyyətini və daxili proseslərini daha obyektiv təsvir etməyə imkan verir. Lakin məhsuldar ağıl yalnız akademik mühitin formalaşdırdığı sosioloji münasibətlər sistemi ilə məhdudlaşmır. O, eyni zamanda, fərdin öz düşüncəsini formalaşdırmaq və ifadə etmək iradəsi ilə bağlı psixoloji ölçüyə də malikdir.

Qeyd edilənlər müəyyən edilərkən isə akademik sahə daxilində həyata keçirilən fəaliyyətlərin yalnız prosedur xarakterli əməliyyatlardan ibarət olmadığına, əksinə, həmin sahənin özünəməxsus xüsusiyyətlərinə işarə etdiyinə dair yeganə sübut, sahəni təşkil edən fərdlərin: akademiklərin, tələbələrin və digər maraqlı tərəflərin gördükləri işlər üzərində düşünməsi və bu baxımdan məsuliyyət hiss etməsidir.[4]

Odur ki, akademiyanın mövcudluğunu şərtləndirən əsas faktor, yəni məhsuldar ağıl xeyli dərəcədə fərdlərin səmimiyyətindən asılıdır. Çünki düşünmək, o cümlədən hüququ düşünmək, əslində, intim aktdır. Bu daha çox fərdin özü ilə baş-başa qaldığında, heç kəsə nümayiş etdirmək məcburiyyəti hiss etmədiyi zaman vicdanının səsi ilə həyata keçirdiyi rasional mühakimə fəaliyyətidir. Elə bu səbəbdən də burada onu aşkarlamaq üçün yeganə yol qalır: düşünənin səmimiyyətinə güvənmək. Məhz bu səbəbdən manifestin məqsədi hüquqi düşüncələrini cəmiyyətə və ya populyar mədəniyyətin dili ilə deyilsə, "istehlakçılara" çatdıran şəxsləri daxili intellektual səmimiyyətə dəvət etməkdir.

Bu baxımdan akademiya, o cümlədən hüquq akademiyası daxilindəki fərdlərin düşüncə kanalları və hədlərinin daim yenilənməsi zəruri olur. Həmin düşüncə kanallarının "kirini" təmizləyən, eləcə də düşüncə hədlərinin əhatəsini daimi genişləndirən isə bilavasitə hüquq fəlsəfəsi olacaqdır. Çünki akademiyanın bu günə qədər nisbətən həzm edə bildiyi və adətən, müraciət etdiyi forma daha çox "bilavasitə" hüquq fəlsəfəsidir. Məhz o fəlsəfi anlayışlardan sadəcə hüquq normalarını daha əsaslı izah etmək, onlara intellektual don geyindirmək (fəlsəfi töhfə) və ya hüquq təhsilini metodoloji cəhətdən sadəcə rəngləndirmək üçün istifadə edir. Lakin bu yanaşma mövcud doqmatik çərçivədə qalır, hüququn öz ontoloji təməllərini silkələmir. Bilavasitə hüquq fəlsəfəsi isə fəlsəfəni hüquqa yamaq kimi vurmur; o, hüququn varlığını, normativliyin reallıqla əlaqəsini və qəbul edilmiş qəliblərin özünü ən radikal şəkildə sorğulayan təfəkkür aktıdır. Ələlxüsus, akademiyanı quran Platonun müəllimi Sokratın fəlsəfənin sorğulama ilə başladığını və sorğulanmayan həyatın dəyərsiz olduğunu irəli sürməsi və

[4] Adem Yılmaz, *Daemon ve Akademi: Akademi ve Entelektüel Çaba üzerine bir Tartışma*, 41 Pamukkale Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi 1, 3 (2020).

bunu ömürboyu davam etdirməsi nəzərə alındıqda,[5] fəlsəfədən uzaqlaşmanın mahiyyət etibarilə akademiyadan uzaqlaşma kimi qiymətləndirilməsi mümkündür. Bu mənada bilavasitə hüquq fəlsəfəsi abstrakt nəzəri iddia deyil, akademiyanın özündə düşüncə yaradan praktik intellektual mövqedir.

Bilavasitə hüquq fəlsəfəsinin köklərini Platonun fəlsəfə mərkəzli akademiyasında da görmək mümkündür. Belə ki, Platonun akademiyası da məhz bu mənada, yəni fəlsəfənin mərkəz olduğu və digər biliklərin onu qidalandırdığı struktur kimi fəaliyyət göstərirdi. Burada tədris fəlsəfi mərkəzli olmaqla yanaşı, fəlsəfəni qidalandıran riyaziyyat, musiqi, poeziya və dialektika kimi sahələr də dərindən tədris olunurdu.[6]

Platonun akademiyasında diqqət çəkən əsas məqamlardan biri də fəlsəfə ilə yanaşı riyaziyyat, musiqi, şeir və dialektika kimi müşayiətedici elementlərin təsadüfi deyil, müəyyən məqsəd və zərurət əsasında tədris olunması idi. Yeni və fərqli sahələrdən biliklərlə düşüncənin zənginləşdirilməsi qalsın bir kənara düşüncəni qidalandıran digər kənar sahələrin, yəni riyaziyyatın məntiqi strukturları, musiqinin ritm və harmoniyası, şeirin dil və təsvir gücü, dialektikanın mübahisə və arqument qurma bacarıqları kimi elementlərin akademik təhsilə məqsədli şəkildə inteqrasiya olunmasıdır.

Məhz bu inteqrasiyadan irəli gələrək iddia edilir ki, akademiya institutdan daha çox düşüncə rejimidir. Aydın məsələdir ki, düşünməyə yer çoxdur. Bu akademiya bağı da ola bilər, dərs otağı da, mühazirə salonu da, laboratoriya və kitabxana da, hətta sahəyə aid diskussiya masaları və qeyri-formal görüş məkanları da.

Sözügedən düşüncə rejimini hüquqşünaslığa gətirdikdə isə təsəvvürdə hüquq akademiyası canlana bilir. Hüquq akademiyası barədə təsəvvürlərə malik olduqdan sonra isə hüquqşünaslığın tarixi və metodologiyası barədə əhatəli, detallı danışmaq mümkündür. Bu məqalədə isə həmin tarix və metodologiyanın manifest xarakterli dinamikalarına toxunmaq məqsədi izlənildiyindən diqqət daha çox hüquq akademiyasının düşüncə rejimi, akademik ənənə və məhsuldar ağılın formalaşması kimi aspektlərə yönəldiləcəkdir. Məqalə, hüquq sahəsindəki normativ və institusional strukturların sadəcə təqdim edilməsinə deyil, eyni zamanda onların sosioloji və fəlsəfi mahiyyətini anlamağa çalışır, beləliklə, hüquq akademiyasının yaradıcılıq və tənqid mədəniyyəti çərçivəsində necə inkişaf etdiyini nümayiş etdirməyə səy göstərir.

[5] Daha ətraflı bax: The Apology by Plato. Burada bax: https://www2.hawaii.edu/~freeman/courses/phil100/04.%20Apology.pdf (son baxış 11 fevral 2026).

[6] Anton-Hermann Chroust, *"Plato's Academy: The First Organized School of Political Science in Antiquity"*, 29 The Review of Politics 25, 39-40 (1967).

Xüsusilə, burada hədəflənən hüquqi doktrinanın formalaşmasının çılpaq, bəzək-düzəksiz və hətta formalardan müstəqil anatomiyasını ortaya qoya bilməkdir. Məhz bu çılpaq anatomiya hüquq düşüncəsinin təməlində insan təxəyyülünün ən radikal məhsullarının dayandığını nümayiş etdirir.

Bu kontekstdə belə bir sual meydana çıxır: əgər Platonun bağında musiqi və şeir düşüncənin ayrılmaz hissəsi idisə, nə üçün müasir hüquq mətnləri estetik və fəlsəfi quraqlığa məhkum edilmişdir?

## II. Bizim bağın meyvələri

Mümkündür ki, irəli sürülən tezislərin hüquqşünaslıqdan daha çox pedaqogikanın predmetinə aid olması barədə tənqidi yanaşmalar ortaya çıxsın. Belə bir iradın konseptual əsasları tamamilə anlaşılandır. Lakin müəllifin məqsədi mövcud paradiqmalara haqq qazandırmaq və ya yarana biləcək elmi tənqidlərdən apriori yayınmaq deyil. Əksinə, təqdim olunan manifestin təməl hədəflərindən biri məhz akademik polemika və tənqid mühitini stimullaşdırmaqdır. Burada həm də öncədən qeyd edilməlidir ki, bu müzakirələrin ümumi çərçivəsi akademik azadlıq prinsipinə söykənir və məhz bu azadlıq elmi fikrin sərhədlərini genişləndirən əsas şərt kimi çıxış edir. Yalnız deskriptiv neytrallığa meyl edən, müəllif mövqeyini elmi məsuliyyətdən kənarda saxlayan və sırf normativ şərhlərlə məhdudlaşan mətnlərin kəmiyyət baxımından üstünlüyünə rəğmən, həqiqi akademik dəyər məhz fərqli düşüncə və tənqid yarada bilən əsərlərdə təzahür edir. Hüquqşünaslığın tarixi inkişaf dinamikasına nəzər saldıqda aydın olur ki, fundamental hüquqi traktatların heç biri intellektual məsuliyyətdən yayınmamış və ya dar normativ çərçivələrə sığınmamışdır. Əksinə, bu əsərlər mövcud ehkamları yıxan kəskin analitik və fəlsəfi dərinliyə malik olmuşdur ki, məqalənin sonrakı hissələrində həmin klassik irsə də müvafiq istinadlar ediləcəkdir.

Manifestin daha çox pedaqoji tövsiyələrdən ibarət olduğu qənaətinə gələnlər üçün dövrün görkəmli hüquq nəzəriyyəçilərindən biri olan Kemal Gözlerin mövqeyi nümunə göstərilə bilər. O bildirir ki, orta səviyyəli yanaşmalarla böyük dəyər formalaşmır, bunun üçün qeyri-adi zəkaya və fitri istedada malik insanlara ehtiyac duyulur, lakin belə insanları bir araya gətirmək kifayət deyil, əgər onları təyziq və məhdudiyyət altında saxlayırsansa, potensialları reallaşa bilməz, incəsənət, ədəbiyyat, mədəniyyət və elm sahəsində həqiqi dəyər azad düşüncə mühitində yaranır, azadlığın olmadığı məkanda yaradıcılıq da mümkün olmur.[7] Məhz bu istinad pedaqogika ilə bağlı iradlara cavab kimi verilir, çünki "pedaqogik məzmun" kimi görünən yanaşmanın arxasında əslində akademik azadlıq və yaradıcı mühit tələbi dayanır.

---

[7] Kemal Gözler, Akademinin Değersizleşmesi Üzerine, Türkiye Nereye Gidiyor? Akademi ve Hukuk Üzerine Gözlemler ve Eleştiriler kitabında 349, 370 (2019). Burada bax: https://www.anayasa.gen.tr/degersizlesme.htm (son baxış 9 May 2026).

Bu məqamda fundamental bir epistemoloji sual ortaya çıxır: əgər hüquqşünaslıq müstəqil elm sahəsi kimi qəbul edilirsə və onun da əsas funksiyası elmi dəyər istehsal etmək, konseptual baza formalaşdırmaq, nəzəriyyələr qurmaq, mövcud reallığı təsnif etmək və bəzən də transformasiyaya uğratmaqdırsa, o zaman akademik azadlıq və yaradıcı təfəkkür tələbi nə üçün hüquq elminə də şamil olunmamalıdır? Geniş yayılmış ənənəvi paradiqmaya əsasən, hüququn dili son dərəcə formal və quru hesab olunur. Lakin bu yanaşmaya alternativ olaraq qeyd edilməlidir ki, sırf normativ xarakter daşıyan qanunvericilik aktlarının dilinin formal-hüquqi çərçivədə olması təbiidir; bununla belə, hüquq nəzəriyyəsi və doktrinasının dilinin də eyni dərəcədə quru və mexaniki olması elmi zərurət deyildir. Əksinə, hüquqi fəlsəfə və nəzəriyyədə mürəkkəb konseptlərin izahı üçün bədii təsvir vasitələrinə, metaforik yanaşmalara və poetik təfəkkürə geniş yer verilməsi həm mümkündür, həm də analitik dərinliyin artırılması baxımından məqsədəuyğundur.

## III. Bağbanlar

Tədqiqatın bu mərhələsində yuxarıda bəhs olunan, normativ kölgələri aradan qaldıran cəsarətli və parlaq intellektual sıçrayışlara dair konkret nümunələr təqdim ediləcəkdir. Lakin bu nümunələrin eklektik, yəni sistemsiz bir toplu xarakteri daşımaması və oxucunun nəzəri trayektoriyanı daha aydın izləyə bilməsi üçün əvvəlcə kiçik bir fəlsəfi müqəddiməyə ehtiyac duyulur.

Miladdan əvvəl IV əsrdə yaşamış Aristotel hesab edirdi ki, eyni hündürlükdən və eyni anda buraxılan cisimlərdən ağır olanları yerə daha tez düşür. Onun nüfuzu o qədər böyük idi ki, heç kəs onun fikrinə qarşı çıxmağa cəsarət etmirdi. Lakin təxminən 20 əsr sonra Qalileo Qaliley Piza şəhərindəki bir qüllədən iki dəmir topu - biri ağır, digəri yüngül, eyni anda buraxdı. Nəticə göstərdi ki, hər iki top yerə eyni vaxtda çatır. Beləliklə, bəzən hətta ən sadə həqiqəti anlamaq üçün bir "axmağın" böyük bir dahinin düşüncəsinə meydan oxuması vacib olur.[8]

Təbii olaraq, təqdim edilən bu cür qeyri-hüquqi illüstrasiyaların bilavasitə hüquqşünaslıqla nə dərəcədə əlaqədar olması barədə metodoloji suallar yarana bilər. Bu suallar əsasən istifadə olunan nümunələrin hüquqi diskursdan kənar görünməsi ilə bağlıdır. Məsələn, ilk baxışdan super-qəhrəmanlar kimi populyar mədəniyyət arxetiplərinin bilavasitə hüquqşünaslıqla nə dərəcədə əlaqədar olması barədə haqlı suallar yarana bilər. Lakin müasir hüquq nəzəriyyəsində super-qəhrəmanlar aləmi ilə hüquqi düşüncə və ədalət anlayışı arasında konseptual paralellər aparan, bu arxetipləri modern dövlətin rasionallığına qarşı yönəlmiş mədəni refleks kimi təhlil edən xüsusi elmi tədqiqatlar mövcuddur. Yəni bu nümunələr sadəcə doqmatik xəyallar deyil, qanuniliklə qanunsuzluq arasındakı sərhədləri

[8] Erkin Qədirli, Həqiqətin ifadəolunmazlığı (2009), https://erkin13.blogspot.com/2009/11/hqiqtin-ifadolunmazlg.html (son baxış 12 fevral 2026).

sorğulayan alternativ vasitələrdir. Məhz təfəkkürümüzü adət etdiyimiz çərçivələrdən çıxarmaq üçün bu cür qeyri-ənənəvi yanaşmalara ehtiyac olduğunu "Akademiyamızın bilavasitə hüquq fəlsəfəsi çatışmazlığı: düşüncəmizi dəli ideyalardan niyə məhrum edirik?" adlı məqaləmdə də xüsusi vurğulamışdım. Orada irəli sürdüyüm "xəndək" metaforasına əsasən, hüquq fəlsəfəsi çatışmazlığı akademik düşüncəmizi dərin bir intellektual təcridə məhkum edir.[9] Necə ki Qalileo eyni vaxtda yerə düşən iki dəmir top əhvalatında cəmiyyətin doqmalarına meydan oxuyaraq "axmaq" adlandırılmağı gözə almışdı, eləcə də bizim bu intellektual "xəndəkdən" çıxmağımız üçün alışdığımız quru hüquqi çərçivələri sarsıdan belə "dəliliklərə" – fərqli konseptual paralellərə müraciət etməyimiz şərtdir.[10]

Lakin mövcud ənənələr daxilində konseptual yeniliklər irəli sürmək əksəriyyət tərəfindən çox vaxt qeyri-rasional cəhd kimi qiymətləndirilir. Qlobal elmi ədəbiyyatda fundamental tədqiqat predmeti olan bu məsələni, ən azından konseptual düşüncə konstruksiyası kimi hüquqi təfəkkürə inteqrasiya etməyi təklif edirəm. Hazırkı mərhələdə irəli sürülən iddia da məhz bununla məhdudlaşır. Praqmatik-formalist baxış bucağından bu cür konseptlər "quyuya daş atan" radikallardan başqa kimsəyə gərəkli görünməyə bilər. Lakin unudulmamalıdır ki, sosioloji "kəndin dəlisi" arxetipi – akademik cəmiyyətin özündən təcrid etməyə çalışdığı, ancaq sistemə ən kəskin və doğru intellektual həlləri irəli sürən təməl mütəfəkkir fiqurunun əsl təcəssümüdür.[11] Bu baxış çərçivəsində "kəndin dəlisi" arxetipi hər hansı konkret şəxsin və ya davranışın idealizasiya edilməsi kimi deyil, daha çox kollektiv şüurun içində kənar, normadan yayınan və buna baxmayaraq həqiqəti ifşa edə bilən səsin simvolu kimi anlaşılmalıdır. Burada əsas məqam həmin fiqurun özündən çox, onun ictimai düşüncə mühitində tutduğu mövqedir: yəni dominant narrativlərə sığmayan baxışların necə qəbul edildiyi və ya kənarda saxlandığı məsələsi. Bu səbəbdən məqsəd tədqiqatçının "kənarlaşma roluna" girməsi deyil; əksinə, intellektual rahatlıq və intizamdan yayınmadan, zərurət yarandıqda alternativ və marjinal səsləri də eşidə biləcək nəzəri diqqəti qorumasıdır.

Məhz bu "xəndək"dən çıxış yollarının axtarışı kontekstində hüquq fəlsəfəsinin zəruriliyi barədə irəli sürülən tezis abstrakt mülahizə kimi qalmasın deyə, onun konkret bir nəzəri alət üzərində necə işlədiyini

---

[9] Ceyhun Əsədov (Jeyhun J. Asadov), Akademiyamızın bilavasitə hüquq fəlsəfəsi çatışmazlığı: düşüncəmizi dəli ideyalardan niyə məhrum edirik?, Linkedln (2 fevral 2026), https://www.linkedin.com/pulse/akademiyam%C4%B1z%C4%B1n-bilavasit%C9%99-h%C3%BCquq-f%C9%99ls%C9%99f%C9%99si-d%C3%BC%C5%9F%C3%BCnc%C9%99mizi-jeyhun-asadov-qio5e/?trackingId=EHOU24vPh6pZ9%2FbOvxKWmA%3D%3D (son baxış 12 fevral 2026).

[10] Abdurrahman Saygılı, Bir Başlangıç: Süper-Kahramanlar Evreni ve Adaletin Gözleri Bağlı Kahramanı Daredevil, 2 Hukuk Kuramı 1-9 (2015).

[11] Əsədov, yuxarıda istinad 9.

göstərmək ehtiyacı yaranır. Bu baxımdan, hüquqi fiksiyaların nəzəri-fəlsəfi təhlili[12] xüsusi əhəmiyyət kəsb edir. Odur ki, bu mövzu təsadüfi bir seçim deyil, əksinə, "dəli ideya" adlandırılan intellektual riskin praktik sınaq meydanıdır.

Fiksiyalar barədə düşünərkən, ilk ağlıma gələn nümunələrdən biri dahi Azərbaycan şairi Məhəmməd Füzulinin:

*"Gər dersə Füzuli ki, gözəllərdə vəfa var,*
*Aldanma ki, şair sözü, əlbəttə, yalandır".*[13]

misraları oldu. Gözlənilən metodoloji iradları qabaqlayaraq qeyd etməliyik ki, hüquqşünaslıqda bədii ədəbiyyat və folklor nümunələrinə istinad ənənəsi və onun konseptual əhəmiyyəti barədə məqalənin irəliləyən hissələrində xüsusi bəhs ediləcəkdir. Füzuliyə edilən bu qeyri-standart müraciət isə, əslində, sırf normativ düşüncəyə sadiq qalan ənənəvi tənqidçilər üçün şüurlu şəkildə formalaşdırılmış intellektual polemika zəminidir.

Hüquq nəzəriyyəsində fiksiyaların yerini anlamaq üçün onları yaradan fəlsəfi əsaslara, xüsusilə də, Hans Vayhingerin fiksiyanalist mövqeyinə nəzər salmaq zərurəti yaranır. O, fiksiyaları, yəni "elə bil ki" ilə başlayan təsəvvürləri qəsdən yalan olan, reallığa tam uyğun olmasa da, elmi və intellektual fəaliyyətin ayrılmaz tərkib hissəsi kimi qəbul edilən idrak vasitələri hesab edirdi. Bu təsəvvürlər reallığın inkarı deyil, onunla işləməyin alternativ və funksional üsuludur.[14]

Bu baxışı hüquqşünaslığa konsept olaraq gətirən XX əsrin görkəmli hüquqşünası Lon Fuller deyirdi:"... mən hüquqi fiksiyalarla bağlı ədəbiyyatı araşdırmağa başladığım zaman, bu mövzu Hans Vayhingerin "Elə bil ki" fəlsəfəsinin romantik aurası ilə əhatə olunmuşdu; bu fəlsəfə isə öz sirli adı ilə insan baxışlarını dərin və müəmmalı şəkildə dəyişə biləcək bir perspektiv vəd edirdi...".[15]

1912-ci ildə Amerika Fəlsəfə Assosiasiyasında etdiyi çıxışda Morris Kohen peşəkar həmkarlarını hüquq fəlsəfəsinə daha çox diqqət ayırmağa çağırmışdır. O, hüquq nəzəriyyəsinin biliyin mənşəyi (epistemologiya) və metafizika üçün əhəmiyyətini müzakirə edərkən belə demişdi: "Düşünün ki, əgər biz təklifləri sadəcə doğru və yalan kimi ikili şəkildə ayırmaq əvəzinə hüquqşünasların "hüquqi fiksiya" adlandırdığı anlayışlara da diqqət yetirsə idik, həqiqətin mahiyyəti ilə bağlı mübahisəmiz nə qədər zənginləşərdi. Məsələn, konstitusiyanın xalqın iradəsi olduğunu söylədikdə, ya da

[12] Ceyhun Əsədov (Jeyhun J. Asadov), Hüquqşünaslıqda fiksiyalar: ideallardan reallığa keçid, Linkedln (24 iyul 2025), https://www.linkedin.com/pulse/h%C3%BCquq%C5%9F%C3%BCnasliqda-fiksiyalar-ideallardan-realli%C4%9Fa-ke%C3%A7id-jeyhun-asadov-2q40c/ (son baxış 12 fevral 2026).
[13] Məhəmməd Füzuli, Əsərləri, 2-ci cild, 77 (Teymur Kərimli red., 2005).
[14] Олег Танимов, *О Теории Фикционализма Г.Файхингера [H. Fayhingerin fiksionalizm nəzəriyyəsi haqqında]*, 90 Elmi əsərlər 122, 122 (2023).
[15] Lon L. Fuller, Legal Fictions, 9 (1967).

hakimlərin hüququ sadəcə elan etdiyini (yaratmadığını) iddia etdikdə və ya ipoteka ilə yüklü bir əşyanı bilmədən alan şəxsin bu faktla xəbərdar olduğunu qəbul etdikdə hüquqi fiksiyalardan istifadə edirik. Bu cür təkliflər, məsələn, bir aktyorun: "Mən sənin atanın ruhuyam", - deməsi kimi, sadəcə, doğrudur və ya yalnışdır kimi xarakterizə edilə bilməz.[16] Qeyd olunan nümunələr hüquqi dilin sırf faktları əks etdirən neytral vasitə olmadığını göstərir. Burada əsas məqam fiksiyanın dil vasitəsilə reallığı "təsvir etməkdən" daha çox onu "formalaşdırmaq" funksiyası daşımasıdır. Yəni hüquqi fiksiya dilin sadəcə ifadə vasitəsi deyil, mənanın qurulduğu struktur kimi işləməsidir.

Fiksiyanalizmin başlanğıc nöqtəsi dilə sadəcə ətraf aləmin ifadə edilməsi vasitəsi kimi deyil, şeylərin zehnimizdəki əksini və dolayısı ilə reallığın özünü formalaşdıran təməl quruluş olaraq yanaşılmasıdır. Bu baxımdan, fiksiya ilə dil arasındakı əlaqə məhz ondan ibarətdir ki, hüquqi fiksiya dilin reallığı sadəcə passiv şəkildə əks etdirməsi deyil, onu müəyyən çərçivədə aktiv şəkildə "qurması" üzərindən işləyir. Başqa sözlə, dil burada həm dərketmə vasitəsi, həm də həmin dərketmənin obyektini yaradan element kimi çıxış edir. Dilin bu cür qurucu funksiyaya malik olmasının əsas səbəbi isə insanın dünyanı şüur vasitəsilə mənalandırmasıdır; dil olmadan şüurdan və onunla gerçəkləşdirilən düşüncədən söhbət gedə bilməz. Odur ki, dil yalnız instrumental (köməkçi) alət yox, həm də ekzistensial anlayışdır və son nəticədə fiksiyalardakı mənanı formalaşdıran da məhz dilin bu cür qurucu istifadəsidir.

Mahiyyət etibarilə, hüquq mövcudluğundan etibarən bu və ya digər şəkildə fiksiya ilə bağlıdır. Belə ki, qanunların hüquq vasitəsilə qurulan sistemin məhsulu olması da bir fiksiyadır. H.L.A. Hartın dediyi kimi, burada biz hüququn çoxdan bəri bağlı olduğu bir anlayışla – fiksiya ilə üz-üzəyik. Yəni burada "fiksiya" reallığın inkarı deyil, hüquqi qaydanın işləməsi üçün qəbul edilən şərti bir düşüncə konstruksiyasıdır. Əslində, yalnız bu hüquqi fiksiyanı qəbul etdiyimiz üçündür ki, ciddi-ciddi "insanların yox, qanunların idarə etdiyi bir sistem"dən danışa bilirik. Bu cür yanaşmalar, haqlı olub-olmamasından asılı olmayaraq, sosial qaydalarla insanların sadəcə eyni cür davranmağa vərdiş etmələri arasındakı fərqin daha aydın başa salınmasına ehtiyac olduğunu göstərir.[17] Məhz qanunun aliliyi ilə bağlı bu cür fiksional yanaşmalar hüquqi qaydaların adi vərdişlərdən nə ilə fərqləndiyini anlamaq üçün vacibdir: insanlar sadəcə eyni cür davranmağa kor-koranə vərdiş etdikləri üçün deyil, şüurlu şəkildə qanunların onlara rəhbərlik etdiyi fiksiyasına (normativ inancına) tabe olduqları üçün bu qaydalara əməl edirlər. Yəni burada əsas vurğu ondan ibarətdir ki, hüquq sistemi faktiki olaraq insanlar tərəfindən idarə olunsa da, normativ səviyyədə "qanunların

[16] Morris R. Cohen, *Jurisprudence as a Philosophical Discpline*, 10 The Journal of Philosophy Psychology and Scientific Method 225, 227 (1913).
[17] H.L.A. Hart, The Concept of Law, 12 (2012).

hakimiyyəti" kimi təqdim olunması məhz bu tip fiksiya üzərindən mümkün olur.

Müasir praqmatik hüquqşünaslıq prizmasından yanaşdıqda, bu cür dərin nəzəri mövzular bəzən əhəmiyyətsiz və lazımsız bir intellektual yük kimi qavranıla bilər. Hüququn sadəcə quru mətnlərdən və onların mexaniki tətbiqindən ibarət olduğunu fərz edən dar baxış bucağı üçün, abstrakt hüquqi fiksiyalar üzərində fəlsəfi axtarışlar aparmaq, həqiqətən də, mənasız və bitməz-tükənməz bir "Sizif əməyi" təsiri bağışlayır. Lakin burada Alber Kamyunun Sizif haqqında irəli sürdüyü fundamental məqam xatırlanmalıdır: "Təpələrə doğru təkbaşına mübarizə aparmaq belə, bir insanın qəlbini doldurmağa kifayət edir. Sizifi xoşbəxt təsəvvür etmək lazımdır".[18] Sizifin hər dəfə qayanı zirvəyə qaldırarkən tapdığı mübarizə əzmi və ondan doğan xoşbəxtlik, əslində bu gün "yararsız" və ya xəyali hesab edilən fiksiyalar üzərində baş sındıran hüquqşünasın vəziyyəti ilə eynidir. Necə ki, daşı qaldırmaq prosesinin özü Sizifə var olması üçün məqsəd verir, fiksiyaların mürəkkəb labirintlərində düşünmək və onları hüquqi konstruksiyalara çevirmək cəhdi də hüquqşünasa sadəcə donuq mətnlərin icraçısı deyil, həm də mənəvi cəhətdən xoşbəxt bir düşüncə yaradıcısı olmaq həzzini bəxş edir.

Əsas məqam budur: bizim bu gün "nəyə lazımdır?" dediyimiz ideyaları vaxtilə Vayhinger və Fuller kimi nəhənglər sanki bir dünya qururmuş kimi zərrə-zərrə işləyiblər. Onlar bir aktyorun səhnədəki sözü ilə konstitusiyanın ruhu arasında əlaqə quracaq qədər dərinə gediblər. Təsəvvür edin, ortada sadəcə bir "fiksiya" (yəni qəsdən qəbul edilmiş bir yalan) var, amma bu adamlar o ideyanın arxasınca sona qədər gedib, ondan bütöv bir hüquq fəlsəfəsi yaradıblar.

Burada haqlı olaraq konseptual bir sual ortaya çıxır: mürəkkəb və radikal abstraksiyaları sistemli hüquqi doktrinalara çevirən fəlsəfi nəhənglərin təcrübəsi fonunda, müasir hüquq akademiyası niyə fərqli düşüncəyə qarşı bu dərəcədə məhdudlaşdırıcı və ifrat ehtiyatlı bir paradiqmaya məhkum olmuşdur?

## IV. Ağacları sulamaq

Yuxarıdakı hissənin sonunda qoyduğumuz suala mənim cavabım belədir: hüquq düşüncəmizin qidalanma mənbələrini daraltmışıq. Təbii ki, bu yekun cavab, hazır həqiqətdir. Hər bir hazır həqiqətə aparan yol isə onun daxili determinantlarını, yəni bu daralmanı şərtləndirən həlledici amilləri anlamaqdan keçir. Hüquq təfəkkürü təsadüfən bu xəndəyə düşməyib; onu ora itələyən, hərəkət trayektoriyasını müəyyən edən konkret səbəblər var.

Qeyd olunan hüquq təfəkkürünün daralması problemi Ronald Dvorkinin "hər şeyi bilən hakim" problemində özünü göstərir. Dvorkinin ideyalarını təhlil etdikdə aydın olur ki, o, klassik hüquqi pozitivist və naturalist

[18] Albert Camus, The Myth of Sisyphus and Other Essays, 78 (Justin O'Brien tərc., 1955).

nəzəriyyələrin debatının fövqündə dayanan bir alimdir. Bununla belə, onun pozitivizm nəzəriyyəsinə ciddi tənqidi baxışları vardır. Belə ki, o, pozitivist baxışın hüququ sadəcə qaydalar toplusu olaraq görməsini tənqid edirdi. Dvorkinə görə belə dar yanaşma mürəkkəb həyati hallar qarşısında qaydaların özlüyündə yetərsizliyinə və ədalətsizliyə yol açır. Buna qarşılıq olaraq da hüququn təməl prinsiplərinə varmağa əsaslanan təfsir nəzəriyyəsini irəli sürürdü. Həmin təfsir nəzəriyyəsinin əsas elementi isə konkret işə baxan hakimdir və bu təfsir zərurəti "xüsusilə, çətin kazuslar"da ortaya çıxır. Belə kazuslar isə iki səbəbdən: ya onun birbaşa hüquqi həllini verən hansısa hüquq normasının olmaması, ya da konkret həll verən hüquq normasının ədalət prinsiplərinə zidd nəticə verməsiylə yaranır. Bu halda artıq ən düzgün həlli tapmaq vəzifəsi hakimin üzərinə düşür. Bəs hakim belə çətin kazuslar qarşısında hansı həll formulunu seçməlidir: yeni hüquq norması yaratmaq, yoxsa mövcud hüquqi bütünlüyü əsas götürərək təfsir nəticəsində əldə etdiyi həlli tətbiq etmək.[19]

Ronald Dvorkinin nəzəriyyəsi ikinci istiqamətə uyğundur və onun Herkules modeli də məhz bu istiqamətin izahından qaynaqlanır. O, özünün təfsir nəzəriyyəsini inkişaf etdirərkən hüquq normaları ilə bağlı hərtərəfli biliyə, ən yüksək peşəkar bacarıqlara malik olan "İdeal hakim - Herkules" fiqurunu "formalaşdırmışdır". Dvorkinin Herkulesi dünya, hüquq və hər şey haqqında biliklərə limitsiz çıxışı olan, bütün növ hüquqi problemlərə vaxt məhdudiyyəti olmadan ən doğru cavabı vermək potensialına malik bir modeldir. O, Herkules metaforundan istifadə edərkən Avropa düşüncə tarixinin çox əsrlik mirasına və bunun Yunan mədəniyyətindəki qaynaqlarına istinad etmişdir.[20]

Qədim yunan mifologiyasına görə Herkules digər adi insanlardan fərqli olaraq super güclərə malik idi. O, xüsusilə, fiziki qüvvəsinin üstünlüyü ilə fərqlənirdi. Bu qüvvə ona qeyri-mümkün dərəcədə ağır obyektləri qaldırmağa və daşımağa, güclü məxluqları məğlub etməyə imkan verirdi.[21] Əlavə olaraq, Herkulesin xüsusi möhkəmliyi və dayanıqlılığı da vardı. O, həyatı boyu bir çox çətinliklərlə və təhlükələrlə üzləşdiyi halda, onlarla mübarizədə davam gətirir və onları aşmağa müvəffəq olur. Herkulesin əsas bacarıqları olan güc və dayanıqlılıqla yanaşı, zəka, yaradıcılıq və liderlik kimi digər bacarıqları və keyfiyyətləri də vardı. Bütün bu keyfiyyətlər onu Yunan mifologiyasının ən böyük qəhrəmanlarından biri edir. Dvorkinin də yaratdığı hakim modeli analoji olaraq digər hakimlərdən özünün super bilikliliyi,

---

[19] Daha ətraflı bax: Ceyhun Əsədov, Hər şeyi bilən hakim problemi: uydurmadan gerçəkliyə (2024), https://www.academia.edu/145608649/H%C9%99r_%C5%9Feyi_bil%C9%99n_hakim_problemi_uydurmadan_gerc%C9%99kliy%C9%99 (son baxış 12 fevral 2026).

[20] Daha ətraflı bax: Anna Ceglarska, *Judge Hercules or Theseus? Ancient Hero and Democratic Leadership*, 16 Cracow Studies of Constitutional and Legal History 283 (2023).

[21] Edith Hamilton, Mythology: Timeless Tales of Gods and Heroes, 225-227 (1942).

obyektivlik və operativliyi, zəkası, mühakimə bacarıqları və s. ilə fərqlənir. Dvorkinin bu fiksiyaya müraciət etməkdə əsas məqsədi ictimai həyatın tənzimlənməsində hakimin əhəmiyyətini yüksəltmək idi. O inanırdı ki, ən doğru qərarı mövcud qanunvericiliyi və təcrübəni bütün incəlikləri ilə tam dərk edən bu ideal hakim - Herkules verə bilər. Dvorkinin Herkulesi nə qədər fövqəlinsan xüsusiyyətlərinə malik olsa da, onun müəyyən məhdudiyyətləri də nəzərdə tutulur: o, mövcud hüquqi biliklərlə kifayətlənir və özü hüquq yaratmır. Lakin onun bütün "çətin kazuslar" üçün həmişə bir həlli vardır. Hətta konkret bir hüquq norması olmasa belə, Herkules hüquqi dəyərlərə və prinsiplərə müraciət edir. O bu prinsipləri öz kazual təfsirlərində ifadə edir. Bu baxımdan Herkules hüquq yaradıcı olmasa da, yaradıcı təfsirlər vermək bacarığına malikdir. Yəni, əslində, Herkules hüququ yaratmır, yalnız onu tətbiq etməklə kifayətlənir. Belə ki, hüquqda boşluq yoxdur, yalnız qanunda boşluq ola bilər və bu baxımdan Herkulesin əsas vəzifəsi sadəcə mövcud olanı müəyyən edib tətbiq etməkdir. Bu baxımdan Dvorkin hüquqşünasın hər hansı bir kazus qarşısında əvvəlcə hüquq normasına, sonra isə bu normanın alt qatını təşkil edən tarixi konstitusion prinsiplərə, daha sonra isə təməl hüquqi ideya və başlanğıclara istinad etməli olduğunu bildirir.[22]

Yuxarıdakı örnəkdə əsas diqqətinizi yönəltmək istədiyim məqamlardan birincisi, hüquq düşüncəsinin belə "çılğın" qaynaqdan qidalanmasıdırsa, ikincisi isə məhz Herkulesin qədim yunan mifologiyasının qəhrəmanı olmasıdır. Göründüyü kimi, Dvorkin mifologiyaya belə istinad etmək və onunla hüquq arasında paralellər aparmaqdan çəkinməyib. Hüquq düşüncəsinin qidalanma mənbələrindən bəhs edərkən elə ilk ağıla gələn örnəklərdən bir digəri yenə Ronald Dvorkinin "zəncirvari roman" ideyasıdır. Çünki bu ideya ilə tanış olduqda elə Herkulesin də Dvorkinin təfsiri izah etməsində mərkəzi fiqur olmasının təsadüfi olmadığı aydın olur. Deməli, dünya hüquqşünaslığının nəhəngləri mürəkkəb hüquqi həqiqətləri izah etmək üçün antik mifologiyaya və ədəbi janrlara sığınmaqdan çəkinməyiblər. Biz isə çəkinirik. Nəhəng olmadığımız üçün çəkinmirik, çəkindiyimiz üçün nəhəng deyilik.

"Zəncirvari roman" ideyasına gəlincə, müəllif özünün "Hüququn imperiyası" əsərində "zəncirvari roman" metaforasını hüququn necə interpretasiya olunduğunu və davam etdiyini göstərmək üçün istifadə edir. Bu metafora əsərdə hüququn yalnız qaydalar toplusu olmadığını, davam edən bir hekayə kimi formalaşdığını vurğulayır. Hər bir hakim qərarı bu hekayənin növbəti fəsli kimidir və hakim həm şərhçi, həm də müəllif funksiyasını yerinə yetirir. Dvorkinin zəncirvari romanında hər bir müəllif əvvəlki fəsillərə sadiq qalmalıdır. Eynilə hakim də öz qərarını verərkən əvvəlki hüquqi materialları, normativ mətnləri, presedentləri və prinsipləri nəzərə almalı ümumi kontekstdən kənara çıxmamalıdır. Bu hekayə bütövlük

[22] Ceglarska, yuxarıda istinad 20, 283-284.

və ardıcıllıq tələb edir; qanunlar, presedentlər və prinsiplər bir-biri ilə bağlıdır və hakim yeni qərarı ilə hüquq sistemini daha məntiqli, əhatəli və ədalətə uyğun hala gətirməlidir. Metafora həmçinin koherent interpretasiya və "daha yaxşı hekayə" tələblərini göstərir; hər yeni qərar yalnız əvvəlkilərlə uyğun gəlməli deyil, eyni zamanda ümumi hüquqi sistemi daha da zənginləşdirməlidir. Beləliklə, zəncirvari roman modeli Dvorkinin hüququ dinamizm içində, keçmiş və gələcək arasındakı əlaqəni qoruyan, hakimin interpretasiya rolunu mərkəzə qoyan bir sistem kimi görməsini əks etdirir.[23]

Bizim daralmış təfəkkürümüzün əksinə, o, hüququn qidalanma mənbələrini qanunverici orqanın dəhlizlərindən çıxarıb antik yunan dastanlarına, mifoloji qəhrəmanlıqlara və ədəbi estetikanın dərinliklərinə qədər uzadır. Biz isə "elmi olmaq" xatirinə hüququ öz qidalanma mənbələrindən: ədəbiyyatdan, mifologiyadan və fəlsəfədən təcrid etmişik.

Manifestlə təkrar xatırladırıq ki, hüquq dildə yaşayır və ondan kənarda mövcud deyil. Buna görə hüquq ifadə olunduğu dilin "ruh"unu özündə daşıyır. Milli dilin ruhu ilə bütövləşməmiş istər hüquq norması, istərsə də hüquq ədəbiyyatı süni bir mətn təsiri bağışlayır. Əbəs yerə deyil ki, hüquq nəzəriyyəsində hüquq ilə ədəbiyyat arasında paralel aparan baxışlar mövcuddur. Bəzən müzakirələrdə Azərbaycan dilinin hüquq dili olmaması barədə şikayətlər eşidilir. Bu halda sual yaranır: həmin fikri deyən hüquqşünasın özü danışdığı və istifadə etdiyi dili və onun ədəbiyyatını hansı səviyyədə bilir? Doğrudur, Azərbaycan dili, həqiqətən, hüquq dili deyil. Bunun öz obyektiv səbəbləri var, məsələn, bizdə hüquq dilinin formalaşdırılması üçün tarixi təcrübə olmayıb, Azərbaycan tarixində, əsasən, dövlət dili başqa dillər (fars, ərəb, rus) olub. Sadəcə, indi Azərbaycan dilində yaxşı işlənmiş hüquq ədəbiyyatı formalaşdırmaq bu dili hüquq dili etməyə gətirib çıxaracaq. Hansı ki, milli dildə hüquq ədəbiyyatı çatışmazlığını hər kəs hiss edə bilir. Bunun üçün hətta milli dilimizdəki ədəbiyyat nümunələri və folklora belə istinad etməkdən çəkinməməliyik. Necə ki, Kemal Gözler bir məqaləsində Götenin "Faust"una istinad edir.[24] Məsələn, Nizami Gəncəvinin "Xəmsə"sində təsvir etdiyi "Xoşbəxtlər ölkəsi" ("İskəndərnamə") sadəcə ədəbi bir utopiya deyil, müasir konstitusionalizmin bərabərlik, sosial ədalət və hüququn aliliyi prinsiplərinin dərin fəlsəfi proyeksiyasıdır.[25] Biz Platonun "Dövlət"indəki mütləq idealizm, Fərabinin "Xeyirxahlar məmləkəti"ndəki

---

[23] Ronald Dworkin, Law's Empire, 228-238 (1986).

[24] Kemal Gözler, Yorum İlkeleri, *Anayasa Hukukunda Yorum ve Norm Somutlaşması* kitabında 15, 16 (2012).

[25] Nizami Gəncəvi, İskəndərnamə (İqbalnamə), 210-215 (Mikayıl Rzaquluzadə tərc., 2004) (Nizaminin bu əsərində təsvir etdiyi "Xoşbəxtlər ölkəsi" sadəcə bədii təxəyyül deyil, dövlət məcburiyyət aparatının (polis, məhkəmə və s.) ehtiyac duyulmadığı, insanların təbii bərabərlik, ədalət və yüksək hüquq şüuru əsasında yaşadığı ideal cəmiyyət modelidir. Bu baxımdan, sözügedən utopiya müasir konstitusionalizmin mənəvi və konseptual proyeksiyası kimi çıxış edir).

(Əl-Mədinə əl-Fazilə) əxlaqi və siyasi harmoniya və Tomas Morun "Utopiya"sındakı sosial-iqtisadi bərabərlik axtarışlarını hüququn konseptual mənbələri kimi qəbul ediriksə, Nizaminin ədalət modelini də eyni dərəcədə qanunvericiliyin fundamental ruhu kimi təhlil etməliyik.[26] Nizami Gəncəvinin, eləcə də "Koroğlu" dastanındakı xalq (Dəlilər) məclislərinin və ortaq qərar qəbuletmə mexanizmlərinin təhlili göstərir ki, deliberativ demokratiya və məşvərət mədəniyyəti bizim folklorda öz ilkin, ən səmimi təcəssümünü tapıb.[27] Bu milli ədəbi abidələr yalnız estetik zövq deyil, müasir konstitusionalizmin tələb etdiyi ləyaqət, ədalət və insan hüquqları kimi konseptlər üçün ən güclü intellektual baza rolunu oynaya bilər.

## V. Modernizmin baltaları

Hüququn cəmiyyətdə mənəvi bir dəyər və ya ədalət ölçüsü kimi deyil, sadəcə olaraq sosial problemləri tənzimləyən rasional bir "həll texnikası" (instrument) kimi qəbul edilməsi "modernist layihə"nin fəlsəfi əsasını təşkil edir.[28] Məhz bu yanaşmadan çıxış edərək, modernist çərçivədə hüquq yalnız qüvvədə olan qanun mətnlərindən və ya normativ aktlardan ibarət qapalı normalar sistemi ilə eyniləşdirilir. Nəticə etibarilə, həmin normativ aktlar iyerarxik və ardıcıl bir sistem yaradır ki, bunun da yekununda onların konkret işə tətbiqi yalnız və yalnız quru məntiqi arqumentlərlə həyata keçirilir. Beləliklə, modernist paradiqmaya görə, hüququn qüvvədə olması yalnız formal hüquq mətnlərindən qaynaqlanır və buna görə də hüquqi tənzimləmə sərt imperativ xarakter daşıyır. Bu ifrat formalizmin məntiqi nəticəsi olaraq, hüququn əxlaqi normalarla üst-üstə düşməsi artıq vacib şərt hesab edilmir; çünki əxlaqi arqumentlər nizamsız real həyata, qanun qaydaları isə prosedura aid edilir.

Hüququn sırf bu cür normativ çərçivəyə və prosedur nizamına salınması əslində onun reallıqdan dərin bir psixoloji geri çəkilməsini özündə əks etdirir. Polşalı tədqiqatçı Pşemislav Tacik "Hüququn melanxoliyası" adlı məqaləsində Kelsenin "Saf hüquq təlimi"ni təhlil edərək göstərir ki, hüquq pozitivizmi və onun normativ arxitekturası əslində qanunun "melanxolik"

---

[26] Daha ətraflı bax: Platon, Dövlət (Araz Gündüz tərc., 2015); Abu Nasr al-Farabi, On the Perfect State (Richard Walzer trans. 2016); Tomas Mor, Utopiya (2014) (Platonun mütləq ideyalar və ədalətə əsaslanan "Dövlət"i, Fərabinin etik-siyasi ahəng axtaran "Fazil adamlar şəhəri" və Morun xüsusi mülkiyyəti rədd edib sosial-iqtisadi bərabərliyi hədəfləyən "Utopiya"sı Qərb və Şərq siyasi-hüquqi fəlsəfəsinin təməlini təşkil edir. Nizaminin "Xoşbəxtlər ölkəsi" modeli də hüququn konseptual mənbəyi kimi məhz bu qlobal intellektual ənənə ilə eyni paradiqmanı bölüşür və qanunauyğunluğun fundamental ruhunu təks etdirir).

[27] Daha ətraflı bax: Koroğlu (2005).

[28] Saygılı, yuxarıda istinad 10, 3-4 (Hüququn modernizm layihəsi çərçivəsində rasional bir nizam yaratma vasitəsinə – dövlət alətinə çevrilməsi müzakirə olunur); Brian Z. Tamanaha, Law as a Means to an End: Threat to the Rule of Law, 11-15 (2006). (Hüququn cəmiyyətdə sadəcə sosial problemlərin həlli üçün instrumental bir "texnika" – sosial mühəndislik kimi qəbul edilməsi tənqid olunur).

mövqeyidir. Tacikə görə, hüquq reallıqla birbaşa üz-üzə gəlmək əvəzinə reallığı özünün "normativ spektri"nə çevirir və abstrakt bir bütünlük yaradır. Normativlik öz gücünü reallıqdan bu cür ayrılmada tapdığı üçün daimi olaraq bir "melanxoliya" tələsinə düşür; o, canlı reallığa tam nüfuz edə bilməməsinin böhranını yaşayır. Bu baxımdan, modernizmin hüquq düşüncəsinə vurduğu ən böyük zərbə elə hüququ bu canlı, "Dionisik" reallıqdan qoparıb steril bir melanxoliya içinə həbs etməsidir.[29]

Sadə dillə desək, hüququn melanxoliyası onun canlı həyatdan qorxub öz qınına çəkilməsidir. Təsəvvür edin ki, bir insanı itirirsiniz, amma bu itki ilə barışmaq əvəzinə, onun fotoşəklini qarşınıza qoyub sanki canlıymış kimi onunla danışmağa başlayırsınız; bu, melanxoliyadır. Tacikə görə, hüquq da məhz bunu edir: o, küçədəki real, xaosla dolu, qanlı-canlı həyatla üzləşmək əvəzinə, o həyatın qanun kitablarındakı "şəklini" çəkir və yalnız həmin şəkillə (normalarla) maraqlanır. Yəni, hüquqşünas üçün artıq küçədəki ağac yox, kağız üzərindəki "ağac" anlayışı vacib olur. Hüquq özünü pəncərəsiz bir otağa kilidləyib divardakı mənzərə rəsminə baxıb "reallıq budur" deyən bir mütəfəkkirə bənzəyir. Modernizmin bizi saldığı "xəndək" də elə budur: hüququn həyatın nəfəsini duymaması, steril və cansız bir otaqda öz-özü ilə danışması.

Bu yanaşma 20-ci əsrin ortalarına qədər hüquq fəlsəfəsi düşüncəsinə hakim olmuş və bu gün də Avropa qanunvericilik sistemləri və onların doktrinalarına təsir göstərməkdədir. Sosial və ya psixoloji yönümlü bəzi məktəblər tərəfindən müdafiə olunan hüquqi realizm də bu meyara daxildir, məsələn, sosial hüquqşünaslıq (R. Pound) və hüquq siyasəti (L. Petrajiski) layihələri texnoloji baxış bucağı ilə bu tendensiyanı davam etdirir.[30]

Bu modernist çərçivənin əsas qüsuru hüquq düşüncəsini həddindən artıq Apollonik prinsipə tabe etməsindədir. Fridrix Nitsşenin "Tragediyanın doğuşu" əsərində təsvir etdiyi Apollonik prinsipi nizam, harmoniya, məntiqi sərhədlər və illuziya vasitəsilə xaosu pərdələməyə xidmət edir. Hüquqi pozitivizmdə bu prinsip qanun mətninin üstünlüyü, məntiqi deduksiya və prosedur məntiqi kimi təzahür edir. Bununla da Dionisian prinsipi, yəni instinktiv, xaotik, emosional birləşdirici və həyati impulsları sıxışdırıb. Nitsşe qeyd edirdi ki, sokratik rasionalizm, bizim deyimimizlə, sonrakı modernizm Dionisian prinsipi inkar edərək həyatı estetik və yaradıcı əsasdan məhrum edir.[31] Elə bu ideya bizim manifestimizə uyğundur.

XX əsrin ortalarına qədər hüquq düşüncəsində mütləq dominantlıq edən modernist layihə zamanla reallığın çoxşaxəliliyini və obyektiv həqiqət

---

[29] Przemyslaw Tacik, *Melancholy of the Law*, 33 Law and Critique 23, 30-32 (2022).

[30] Daha ətraflı bax: Vihren Bouzov, Modernism and Postmodernism in Philosophy of Law, 203, 205 (2013). Burada bax: https://eclass.uoa.gr/modules/document/file.php/LAW215/2017-18/Bouzov%20-%20Legal%20modernism%20and%20postmodernism.pdf (son baxış 15 fevral 2026).

[31] Daha ətraflı bax: Friedrich Nietzsche, Tragediyanın Doğuşu (2021).

anlayışını rədd edən postmodernizm cərəyanı ilə əvəz olunmağa başladı. Postmodernizm hüquqa mütləq və universal həqiqətlərin inkarı, dilin dekonstruksiyası (dağıdılıb yenidən mənalandırılması) və hər cür normativ çərçivənin arxasında dayanan güc, hakimiyyət münasibətlərinin ifşası iddiaları ilə daxil oldu. Məhz bu radikal konseptual dəyişiklik fonunda, postmodernist mütəfəkkirlərə görə hüquq artıq "dəyərlərin qaydalarından ibarət vahid, ardıcıl və qapalı bir sistem" kimi qəbul edilə bilməz.[32] Hüququn yalnız qanunlardan ibarət olması ilə bağlı fikirlər artıq köhnəlmişdir. Beləliklə, modernist yanaşma XX əsrin sonlarında cəmiyyətin əsas problemlərini həll edə bilməmiş, əksinə, iqtisadi və siyasi hakimiyyətin qorunub saxlanılması üçün bir alət funksiyasını daşımışdır. Postmodernistlər modernist elmiçilik və naturalizmi tənqid edirlər. Onlar hüququn formalist anlayışını və hakimin qərarlarının yalnız qanun mətnlərinə tabe edilməsini sual altına alır, hesab edirlər ki, bu qərarlar həm də mənəvi əsaslara və siyasi korrektlik meyarlarına uyğun olmalıdır.[33]

Hüquqa postmodernist baxış təqdim edən nəzəriyyələr çoxsaylı, hətta bir-birinə zidd mövqelər və nəticələr irəli sürmüşdür. Bu nəzəriyyələri ümumilikdə dialoji və tənqidi istiqamətlərə bölmək olar. Dialoji yanaşma tərəfdarları hüququ davamlı ünsiyyət vasitəsilə öz-özünü inkişaf etdirən sistem kimi qəbul edir və onun daxili kommunikativ aspektlərinə xüsusi vurğu edirlər. Tənqidi nəzəriyyələr isə modernizmin doğru saydığı dəyərlərinin yenidən düşünülməsinə yönəlmiş və hüququn arxasındakı hakimiyyət, güc münasibətlərini ifşa etməyə çalışırlar. Hüquq təcrübəsində dialoji yanaşmanın real tətbiqini, məsələn, bərpaedici ədalət və mediasiya mexanizmlərində görmək mümkündür; burada ədalət yuxarıdan aşağıya imperativ qanunla deyil, zərərçəkən və təqsirkar arasındakı davamlı, səmimi ünsiyyət nəticəsində əldə edilən konsensusla formalaşır. Digər tərəfdən, tənqidi nəzəriyyənin hüquq praktikasındakı ən maraqlı fenomenlərindən biri "feminist hüquq nəzəriyyəsi" adlandırılan baxışlar məcmusunun qadınlara qarşı zorakılıq işlərindəki irəli sürdüyü dəyişiklik təklifləridir.[34] Onlar ənənəvi "zəruri müdafiə" konseptinin sırf kişimərkəzli fiziki güc modelinə əsaslandığını "ifşa" edərək, məhkəmə təcrübəsinə "sistematik zorakılığa məruz qalmış qadın sindromu" *(battered woman syndrome)*[35] kimi yeni,

[32] Costas Douzinas et al., Postmodern Jurisprudence: The Law of Text in the Texts of Law, 27 (1990).
[33] Bouzov, yuxarıda istinad 30, 205.
[34] Catharine A. MacKinnon, Toward a Feminist Theory of the State, 242-245 (1989).
[35] Lenore E. Walker, The Battered Woman Syndrome, 42-45 (4th ed. 2016) (L.E.Walker bu sindromu formalaşdırarkən göstərir ki, sistematik zorakılığa məruz qalan qadınların "öyrənilmiş acizlik" və psixoloji travma vəziyyəti onların təhlükəni fərqli cür qavramasına səbəb olur. Buna görə də ənənəvi, qəfil və bərabər güc tətbiqini tələb edən "zəruri müdafiə" doktrinası bu qadınların hüquqlarını qorumaq üçün qeyri-kafi (kişimərkəzli) olmuş, sindrom məhz bu kontekstual boşluğu doldurmaq məqsədilə hüquqi praktikaya daxil edilmişdir).

modernizmin qəbul etmədiyi fərqli psixoloji və kontekstual meyarların daxil edilməsinə nail olmuşlar. Bu tənqidi yanaşmaların ümumi mahiyyəti hüququn yalnız institusional qaydalar sistemi deyil, eyni zamanda bu qaydaların necə anlamlandırıldığı və necə ifadə olunduğu ilə də bağlı olduğunu göstərir; yəni diqqət artıq təkcə normativ məzmunun özünə yox, onun qurulduğu məna mexanizmlərinə yönəlir.

Məhz bu məqamda əvvəlki müzakirələr göstərir ki, hüquqda güc münasibətlərinin və alternativ baxışların üzə çıxarılması təkcə institusional səviyyədə deyil, həm də dilin özündə baş verir, çünki hüquqi reallıq çox vaxt elə dil vasitəsilə qurulur və təqdim edilir. Beləliklə, görünən odur ki, modernizmin hüququ mütləq, obyektiv və rasional sistem kimi təqdim etməsi dildə gizlənmiş illüziyadır və klassik bölgülər hüquqi təcrübədə dərhal dekonstruksiyaya uğrayır. Məsələn, fiziki olaraq mövcud olmayan mücərrəd "mülkiyyət" anlayışının yalnız hüquqi dillə gerçəyə çevrilməsi dil-reallıq bölgüsünü sarsıdır. Təbiətdə var olmayan şirkətin "hüquqi şəxs" kimi canlandırılması həqiqət-fiksiya sərhədini silir. Həqiqət-rəy fərqi isə məhkəmələrdə əriyir; çünki hakimlərin səs çoxluğu ilə verdiyi subyektiv rəy institusional güc sayəsində "mütləq həqiqət"ə (*res judicata*) çevrilir. Bu düşüncə xətti hüquqi arqumentasiyanın bəzi qeyri-formal nəzəriyyələrində (H. Perelman və onun məktəbi, hüquqi hermenevtikanın humanist qolu) və digər postmodernist istiqamətlərdə (hüququn tənqidi tədqiqatları, feminist hüquq nəzəriyyəsi) müdafiə olunur. Məhkəmə prosesində mütləq və obyektiv həqiqət artıq əlçatan məqsəd hesab edilə bilməz. Əvəzində, hüququn tətbiqi "nizam ilə nizamsızlıq, azadlıq ilə məhdudiyyət və müəyyənlik ilə qeyri-müəyyənlik arasında gerginliyin mövcud olduğu" bir növ dil oyunu kimi şərh edilir. Bu oyun həm mövcud qaydalar çərçivəsində oynanılır, həm də atılan hər addımda o qaydaları yenidən formalaşdırır. Qeyri-müəyyənlik və qərarvermə isə bu hüquqi dil oyununun ayrılmaz hissəsidir; çünki o, "hər bir iştirakçının qərar verməli olduğu, sonsuz mümkün gedişlərdən ibarət geniş bir praktikadır". Belə bir paradiqmada hər hansı konkret hüquqi gedişin düzgünlüyü obyektiv sübutlara deyil, "verilmiş hökmün ritorik gücünə" – yəni istifadə olunan dilin inandırma qabiliyyətinə əsaslanır.[36]

Hüquqi qərarların obyektiv həqiqət yox, ritorik güc olması barədə bu qənaətlər hüquq fəlsəfəsinin qlobal intellektual transformasiyalardan kənarda qalmadığını göstərir. Belə ki, son onilliklərdə Jak Derrida, Mişel Fuko, Fridrix Nitsşe, Jan-Fransua Lyotar, Jak Lakan, Fredrik Ceymson və Riçard Rorti kimi filosofların formalaşdırdığı "postmodernizm" və "poststrukturalizm" xətti hüquq ədəbiyyatına da dərindən nüfuz etmişdir. Artıq hüquq alimləri mütləq həqiqəti rədd edən bu qeyri-hüquqşünas mütəfəkkirlərin ideyalarına əsaslanaraq tədqiqatlar aparır, "postmodern

[36] Yuxarıda istinad 30, 206.

hüquqi hərəkatlar", "postmodern hüquqşünaslıq" və "postmodern hüquqi feminizm" kimi yeni istiqamətlər yaradırlar. Bu isə o deməkdir ki, hüquq fəlsəfəsi modernizmin sərt qəliblərindən çıxaraq, postmodern nəzəriyyənin gətirdiyi bu tənqidi paradiqmanı aktiv şəkildə mənimsəməkdədir.[37]

Modernist paradiqmaya dair tənqidlərimizin məntiqi davamı olaraq vurğulanmalıdır ki, postmodernist yanaşma modernizmin daxili ziddiyyətlərini və struktur qüsurlarını aradan qaldırmaq cəhdində paradoksal şəkildə hüquqi təfəkkür üçün alternativ və bəzən daha məhdudlaşdırıcı maneələr formalaşdırmışdır. Postmodernizm modernizmin qatı formalizmini dekonstruksiya etmək iddiası ilə çıxış etsə də, nəticə etibarilə özünəməxsus yeni senzura mexanizmləri və intellektual daralmalar yaradaraq, ilkin islahat hədəflərindən uzaqlaşmışdır.

Bununla belə, postmodern hüquq nəzəriyyəsinin hüquq fəlsəfəsinə vurduğu çox ciddi bir zərbə – mənfi cəhəti vardır. Onun əsaslandığı "epistemoloji relativizm", yəni dünyada mütləq və obyektiv heç bir həqiqətin olmadığı, hər şeyin yalnız fərdlərin subyektiv rəylərindən ibarət olması inancı hüquq mühitində dağıdıcı nəticələr doğurur. Bu cür dərin subyektivlik və ənənəvi dəyərləri amansızcasına parçalamağa hesablanmış dekonstruksiya metodu, son nəticədə fərqli düşüncələrə qarşı "ləğv mədəniyyəti" kimi yeni və amansız senzuralara səbəb olmuşdur. Relativizm obyektiv həqiqəti qəsdən ləğv edərək, rasional və elmi arqumentlərin yerini güc və hegemonluq münasibətləri ilə əvəz edir. Nəticədə, fərqli düşüncələr "zərərli" və ya "hegemonik" adlandırılaraq hüquqi mühitdən kənarlaşdırılır. Arqumentasiya əvəzinə daimi damğalama üstünlük təşkil edir.

Postmodern dekonstruksiya, modernizmin hegemoniyasını dağıdaraq özü yeni senzura mexanizmləri yaradır, ironiya burasındadır ki, azad düşüncəni müdafiə etmək iddiası ilə ifadə azadlığını məhdudlaşdırır. Hüquq akademiyasında bu, tənqidi diskussiyaları qorxudur, yaradıcılığı boğur və "dəli ideyalar"ı yenə də kənara atır. Nəticədə, həm modernizmin Apollonian quru nizamı, həm də postmodernizmin relativist ləğv mədəniyyəti hüquq düşüncəsini Platonun bağındakı inteqrasiyadan uzaqlaşdırır.

## VI. Fidanlar

Aydınlaşdırmaq vacibdir ki, bu məqalədə oxucuya təqdim olunan həll təklifləri sadəcə nəzəri, utopik arzulardan ibarət deyil. Məhz oxuduğunuz bu məqalənin (manifestin) özü elə irəli sürdüyü ideyaların birbaşa tətbiq meydanıdır. Fəlsəfə və ədəbiyyatın hüquqa qayıtmalı olduğu fikri kənardan irəli sürülmür; əksinə, "Herkules", "Sizif", "xəndək", "quyuya daş atan dəli" kimi fiksiyalardan və ədəbi metaforalardan məhz bu məqalənin özündə istifadə olunaraq həmin istiqamətdə ilk addım atılır.

[37] Douglas E. Litowitz, Postmodern Philosophy and Legal Thought, 1-2 (1997).

Ümid edirəm ki, bu manifest bir hüquqi yazı təlimatı kimi yozulmayacaqdır; burada əsas hədəf yazının texniki forması deyil, həmin mətni doğuran akademik düşüncənin özünəməxsus struktur problemidir.

Bu məqamda oxucuya səmimi bir etiraf etmək zərurəti hiss edirəm. Yuxarıda qaldırılan konseptual problemlər və bəyan edilən bu manifest əsla diktə edilən, qəti və mütləq bir həqiqət iddiası deyildir. Bu yazı, əslində, mənim özümün də içində olduğum əqli axtarışın, status-kvonu təşkil edən hüquq akademiyasına düşüncə meyillərini tam yerləşdirə bilməməkdən qaynaqlanan melanxolik daxili narahatlığın və tərəddüdlərin məhsuludur. Buna görə də, məqalənin müəyyən hissələrindəki tənqidlər bəzən impulsiv və ya emosional yozula bilər.

Lakin nəzərə almaq lazımdır ki, neytrallığın arxasına və normativ kölgələrə sığınaraq elmi məsuliyyətdən yayınmaqdansa, öz düşüncəsini bütün çılpaqlığı ilə ortaya qoymaq, fərqli mövqelər, hətta sərt tənqidlər doğura bilmək akademik fəaliyyətin ən yüksək formalarından biridir. Bu mənada məhz polemika yarada bilmək qabiliyyəti konsensus yaratmaqdan daha çox elmi məhsuldarlığın göstəricisi hesab olunmalıdır. Çünki hüquq kimi normativ strukturlar üzərində qurulan bir sahədə "rahat razılaşma" çox zaman düşüncənin deyil, təkrarlanan şablonların məhsulu olur. Halbuki inkişaf məhz narahatlıqdan, ziddiyyətdən və mövcud qənaətlərin sarsılmasından doğur.

Bu baxımdan, təqdim olunan məqalə ideal və nöqsansız olmaq iddiası daşımır. Əksinə, o, öz daxili gərginlikləri, struktur ziddiyyətləri və bəzən də qəsdən sərtləşdirilmiş tezisləri ilə birlikdə mövcuddur. Onu mexaniki bir mətn deyil, daha çox düşünən, reaksiya verən, hətta müəyyən məqamlarda tərəddüd edən canlı bir intellektual orqanizm kimi qəbul etmək daha doğru olardı. Bu mətn öz daxilində daşıdığı natamamlıqlara baxmayaraq – və bəlkə də məhz onların hesabına – irəli sürdüyü fəlsəfi nəticəni doğurmağa çalışır. Burada qüsur zəiflik kimi deyil, metodoloji riskin və səmimiyyətin göstəricisi kimi çıxış edir.

Nəticə etibarilə, bu mətn nə yekun söz, nə də qəti hökm iddiasındadır. O, daha çox bir dəvətdir: düşünməyə, mübahisə etməyə, tənqid etməyə çağırışdır. Əgər bu məqalə oxucuda narahatlıq yaradırsa, suallar doğurursa və ya hətta etirazla qarşılanırsa, bu uğursuzluq kimi deyil, əksinə, məqsədinə çatmış bir təşəbbüs kimi qiymətləndirilməlidir. Çünki hüquq düşüncəsi yalnız belə bir dinamik, gərgin və yaradıcı mühitdə inkişaf edə bilər.

## Nəticə

Beləliklə, bu manifest vasitəsilə müəllif səmimiyyətinə olan etimadın bərpasına yönəlmiş çağırışlar irəli sürülmüşdür. Bu çağırışların nə dərəcədə uğurlu olduğu məsələsinin qiymətləndirilməsini isə məqalənin müxtəlif hissələrində istinad edilən tənqidçinin mülahizəsinə həvalə edirik.

Nəticə etibarilə, akademiyanı yalnız institusional çərçivədə deyil, hər şeydən əvvəl bir "düşüncə rejimi" kimi qəbul etdikdə aydın olur ki, milli hüquq doktrinasının inkişaf potensialı kifayət qədər genişdir. Bu potensialın daşıyıcıları kimi çıxış edən gənc müəlliflərin mövcudluğu isə xüsusi ümid doğurur. Bu baxımdan, təqdim edilən manifestin əsas məqsədlərindən biri də məhz həmin intellektual enerjini hərəkətə gətirmək, onları hüquq düşüncəsinə daha sərbəst, yaradıcı və fəlsəfi yanaşmağa təşviq etməkdir. Hüquqi mətnlərin yalnız texniki normativlik çərçivəsində deyil, eyni zamanda estetik və fəlsəfi ifadə vasitələri ilə zənginləşdirilməsi – metaforik desək, Platonun bağında olduğu kimi düşüncənin "şeir"lə qidalanması bu istiqamətdə mühüm metodoloji addım kimi qiymətləndirilə bilər. Şübhə yoxdur ki, belə yanaşma ilə formalaşan əsərlər müəlliflərin azad düşüncə potensialını daha dolğun əks etdirəcəkdir.

Eyni zamanda, hüquq fəlsəfəsinin yetərincə inkişaf etməməsi səbəbindən hüquq düşüncəsinin düşdüyü dərin metodoloji "xəndək"dən çıxış yolları da yalnız daxili refleksiya ilə məhdudlaşmır. Bu prosesdə meta-səviyyədə düşünə bilən, hüquqa kənardan baxış imkanı qazanan müəlliflərin rolu həlledici əhəmiyyət kəsb edir. Onların təqdim etdiyi nəzəri yanaşmalar və metodoloji alətlər, metaforik ifadə ilə desək, bu xəndəkdən çıxmaq üçün "kəndir" funksiyasını yerinə yetirir. Beləliklə, hüquqşünaslıq yalnız öz daxilində deyil, eyni zamanda digər intellektual sahələrlə qarşılıqlı təsir nəticəsində inkişaf edir.

Bu manifest çərçivəsində irəli sürülən əsas tezislərdən biri də ondan ibarətdir ki, hüquq düşüncəsinin qidalanma mənbələri zamanla daralmışdır. Ağlasığmaz görünən ideyaların sistemli şəkildə işlənib hazırlanması qorxusu, eləcə də hüquqşünaslığın özünü məhdud çərçivələrə salması nəticəsində bu sahənin intellektual mühiti müəyyən mənada kasadlaşmışdır. Bu daralmanı aradan qaldırmaq üçün isə daha geniş və bəzən qeyri-ənənəvi mənbələrə müraciət etmək zəruridir. Bu kontekstdə Ronald Dvorkinin "Herkules" modeli və Fridrix Nitsşenin Apollon–Dionis qarşılaşdırması hüquqi düşüncənin sərhədlərini genişləndirmək baxımından nümunəvi yanaşmalar kimi çıxış edir.

Bununla yanaşı, hüququn mahiyyət etibarilə milli fenomen olması onun yerli mədəniyyətlə üzvi bağlılığını da şərtləndirir. Bu baxımdan, zəngin folklor irsi, xalq müdrikliyi və ədəbi ənənə hüquq düşüncəsinin inkişafı üçün mühüm resurs kimi nəzərdən keçirilməlidir. Şübhəsiz ki, belə yanaşma müəyyən risklər, xüsusilə də sahələrarası sərhədlərin bulanması riskini özündə ehtiva edir. Lakin mövcud steril və formalist hüquq dilinin məhdudiyyətləri nəzərə alındıqda, bu cür inteqrativ yanaşmanın daha məhsuldar nəticələr verəcəyi qənaətinə gəlmək mümkündür.

Hazırkı hüquqi diskursda müşahidə olunan bu "steril dil" isə təsadüfi formalaşmamışdır. O, müəyyən mənada modernizm və onun ardınca gələn postmodernizmin təsiri altında təşəkkül tapmış, hüquqi düşüncəni müəyyən

qəliblər daxilində sabitləşdirmişdir. Bu təsir bəzən hüquq düşüncəsinin daxili dinamizmini zəiflətmiş, onu hazır və mübahisəsiz həqiqətlər toplusu kimi təqdim etmişdir. Halbuki hüquq minilliklər boyu formalaşmış kompleks bir düşüncə sistemidir və onu yalnız müəyyən nəzəri cərəyanların çərçivəsi ilə məhdudlaşdırmaq düzgün olmazdı.

Bu baxımdan, hüquq düşüncəsinin nə modernizmin sərt rasionalizmi, nə də postmodernizmin ifrat relativizmi ilə məhdudlaşdırılması məqsədəuyğun hesab edilə bilməz. Əksinə, yaradıcı düşüncənin təməl impulslarını qoruyub saxlamaq, eyni zamanda onları yeni kontekstlərdə inkişaf etdirmək vacibdir. Xüsusilə, müasir dövrdə formalaşan və bəzən intellektual mühitdə özünü göstərən "ləğv mədəniyyəti"nin yaratdığı süni həssaslıqlar hüquq düşüncəsinin sərbəst inkişafına maneə törədə bilər. Bu səbəbdən, hüquqşünaslıq bu cür məhdudlaşdırıcı tendensiyalardan kənarda qalaraq daha açıq, tənqidi və yaradıcı mühitdə inkişaf etməlidir.

Beləliklə, təqdim edilən manifest hüquq düşüncəsinin yenidən canlandırılması istiqamətində bir təşəbbüs kimi qiymətləndirilməlidir. Onun əsas məqsədi mövcud vəziyyətə alternativ təklif etməkdən daha çox, hüquqşünaslıqda düşüncə imkanlarını genişləndirmək, yeni yanaşmalar üçün zəmin yaratmaq və akademik müzakirəni daha dinamik müstəviyə keçirməkdir. Bu isə yalnız nəzəri iddialarla deyil, eyni zamanda belə mətnlərin yaratdığı intellektual təsir vasitəsilə mümkün olacaqdır.